ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

Kapital Bank

RFO
RESPUBLİKA FƏNN OLİMPİADALARI

# Coğrafiya 11

**Ad**____________________**Soyad**____________________

* İmtahan müddəti **180** dəqiqədir.
* **4 səhv** cavab **1 düz** cavabı aparır.
* Hər sual **4 bal** ilə qiymətləndirilir.
* Nəzarətçilərə yalnız cavab kartları təqdim olunur.
* Rayon (şəhər) mərhələsinin nəticələrini **www.portal.edu.az, www.olimpiada.edu.az** saytlarından və ya təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

**UĞURLAR!**
**22.01.2022**

1. Şimal yarımkürəsində yerləşən orta fırlanma sürəti 837 km/saat olan paralel çevrəsinin üzərində günəş şüalarının günorta vaxtı maksimum düşmə bucağı 55° olarsa, yer kürəsinin orbit müstəvisinə neçə dərəcə meyilli olduğunu hesablayın.

A) 25　B) 35　C) 30　D) 20　E) 65

2. Günəş şüalarının minimum düşmə bucağının 43°-dən böyük olduğu coğrafi enliklərdə yerləşən vulkanları müəyyən edin.

1. Montan-Pele　2. Reynir　3. Orisaba　4. Ruapexu

5. Pinatubo　6. Etna　7. Fudziyama　8. Kerinçi

A) 2,4,6,7　B) 1,3,5,8　C) 1,2,5,8　D) 2,5,7,8　E) 1,4,5,8

3. Dağların yerləşdiyi ərazilərə aid olan doğru fikirləri müəyyən edin.

1. Karpat　2. Appalaç　3. Pamir

4. Böyük Suayırıcı　5. Verxoyansk　6. Əndəlüs

a. Bütün dağların ətəyində günorta vaxtı şaquli cisimlərin kölgəsi il boyu şimal istiqamətini göstərir.

b. Bu dağlardan yalnız ikisi Paleozoy erasında yaranıb.

c. Bu dağların mütləq hündürlüyünün azalma sırası 3,1,6,5,4,2-dir.

d. Bu dağlardan birinin ən hündür zirvəsi Qerloxovski ştit-dir

e. Bu dağlar içərisində ən hündür zirvəyə malik olan dağda fəaliyyətdə olan vulkanlar mövcuddur.

A) a,d　B) a,c　C) b,e　D) d,e　E) b,d

4. Sxemdə göstərilən yarımada üçün xarakterik xüsusiyyətləri müəyyən edin.




1. Ərazisi iki ölkəyə məxsusdur.

2. Ərazisində mülayim kontinental iqlim tipi müşahidə edilir.

3. Çayları iki okean hövzəsinə aiddir.

4. Aid olduğu qitənin ən ucqar nöqtələrindən biri bu yarımada ərazisində yerləşir.

5. Ərazisi akkumulyativ mənşəli düzənlikdir.

6. Cənub hissəsində gəmiçilik kanalı mövcuddur.

A) 1,5,6 B) 2,3,5 C) 2,4,6 D) 1,4,5 E) 3,5,6

5. Dinamik yüksək təzyiqdən formalaşan küləklər:

A) Briz

B) Qütb

C) Musson

D) Qərb

E) Dağ-dərə

6. Şəkildə göstərilən Vasyuqan bataqlığının yerləşdiyi ölkəni müəyyən edin.



A) Polşa

B) Belarus

C) Rusiya Federasiyası

D) Brazilya

E) Kanada

7. İlyampu dağ zirvəsinin yerləşdiyi ölkəyə aid olan xüsusiyyətləri müəyyən edin.

1. Təbii artımın II tipi səciyyəvidir.

2. Materikdaxili ölkədir.

3. Şimal yarımkürəsində yerləşir.

4. Zəngin qalay ehtiyatlarına malikdir.

5. Yerləşdiyi dağ silsiləsində yalnız sönmüş vulkanlar mövcuddur.

6. Ərazisi iki materik tipli litosfer tavasının konvergent sərhədində yerləşir.

A) 1,2,4 B) 2,4,6 C) 3,4,5 D) 2,3,6 E) 1,3,5

8. Şəlalələrin yerləşdiyi ölkələri müəyyən edin.

1. Anhel ----------- Venesuela

2. İquasu --------- Braziliya və Uruqvay

3. Stenli (Boyoma) ---------- Tanzaniya

4. Tugela -------- Cənubi Afrika Respublikası

5. Livinqston ----- Konqo Demokratik Respublikası

6. Viktoriya ------- Mozambik

A) 2,5,6 B) 2,3,6 C) 1,2,4 D) 2,3,5 E) 1,4,5

9. Adaları ölkələrə görə qruplaşdırın.

1. Qalapaqos ------ Kolumbiya

2. Yeni Kaledoniya ---------- ABŞ

3. Azor --------- İspaniya

4. Kayman ------ Böyük Britaniya

5. Devon ------- Kanada

6. Pasxa -------- Çili

A) 1,3,6 B) 4,5,6 C) 2,4,5 D) 2,5,6 E) 3,4,5

10. Xəzər (gölü) dənizi üçün xarakterik xüsusiyyətlərdən hansılar Qara dəniz üçün xarakterik olmayıb, amma Baltik dənizi üçün xarakterikdir?

A) Bir neçə ölkənin sahillərini yuyur.

B) Ən dərin nöqtəsi 1100 m-dən azdır.

C) Rusiya Federasiyasının sahillərini yuyur.

D) Şərqi Avropa düzənliyindən başlayan çaylar üçün eroziya bazisidir.

E) Səthində hərəkət edən gəmilərin kölgəsi günorta vaxtı şimal istiqamətini göstərir.

11. Lənkəran təbii vilayətində neçə iqlim yarımtipinə rast gəlinir?

A) 2 B) 3 C) 5 D) 4 E) 6

12. Miqyası 1:12 000 000 olan xəritədə iki məntəqə arasındakı məsafə 44 sm-dir. Bu məsafə 70° paralel çevrəsinin 136°-lik qövsünün uzunluğuna bərabər olduğunu bilərək, təhrifin neçə km olduğunu hesablayın.

A) 162,4 B) 66,4 C) 132,2 D) 84,8 E) 46,8

13. Verilmiş xəritə nəyi ifadə edir.




A) İllik buxarlanma qabiliyyətinin miqdarını

B) İllik yağıntının miqdarını

C) İllik radiasiya balansını

D) Albedonun illik kəmiyyətini

E) Atmosfer təzyiqinin illik kəmiyyətini

14. Cədvələ əsasən doğru ***olmayan*** bəndi seçin.

| S/S | Çayın adı | Çayın mənsəbinin yerləşdiyi hövzə | Mənsəbinin yerləşdiyi ölkə |
|---|---|---|---|
| 1 | Po | Adriatik dənizi | İtaliya |
| 2 | Yukon | Bofort dənizi | Kanada |
| 3 | İravadi | Siam körfəzi | Myanma |
| 4 | İli | Balxaş gölü | Qazaxıstan |
| 5 | Fərat | Ərəbistan dənizi | İraq |
| 6 | Rona | Aralıq dənizi | Fransa |

A) 1, 3, 5 B) 2, 4, 6 C) 3, 5, 6 D) 2, 3, 5 E) 2, 4, 5

15.İqlim diaqramını təhlil edərək düzgün olan bəndi müəyən edin.




1. Yağıntının illk miqdarı 600 mm dən çoxdur.

2. Zaqatalanın yağıntılarının illik miqdarından daha çoxdur.

3. Kurosio okean cərəyanının olduğu yarımkürəyə aiddir.

4. Sumatra adasının yerləşdiyi iqlim qurşağına aiddir.

5. İllik temperatur amplitudu $25^{0}$C-dir.

6. Aid olduğu ərazidəki çayların qidalanmasında buzlaq suları üstünlük təşkil etmir.

A) 3,4,5 B) 2,3,5 C) 1,3,6 D) 1,2,4 E) 3,4,6

16. Ərazisindən axan çayların iki okean hövzəsinə aid olan adaları seçin.

A) Sumatra, Kalimantan, Folklend, Mindanao

B) Yava, Odlu Torpaq, İslandiya, Tasmaniya

C) Farer, Yeni Zelandiya, Kergelen, Nyufaundlend

D) Sulavesi, Seyşel, Vrangel, Qalapaqos

E) Bermud, Sokotra, Luson, Yeni Qvineya

17. Doğru ***olmayan*** bəndi müəyyən edin.

1. Söyüdlü, Vejnəli, Gilgəzçay və Hamançay faydalı qazıntı yataqlarının yerləşdiyi inzibati rayonlar son müharibədə işğaldan yeni azad olunmuşdur.

2. Ölkəmizin yerləşdiyi istilik qurşağının şimal sərhədi orta illik temperaturu göstərən izotermlə müəyyən edilir.

3. Ağsuçay, Köndələnçay və Qarqarçayın qidasında yağış suları üstünlük təşkil edir.

4. Yazı yaylası Bərgüşad və Həkəri çaylarının arasında yerləşir.

5. Respublikamızda maksimal yağıntı miqdarı, maksimal buxarlanma qabiliyyətindən böyükdür.

6. Respublikamızda sahəsinə görə ən böyük milli park Hirkan milli parkıdır.

A) 1,2,6 B) 2,4,6 C) 3,4,5 D) 1,2,3 E) 3,5,6

18. Ticarət və nəqliyyat, turizm, rabitə və bank xidməti, səhiyyə və təhsil, kino, teatr və incəsənət sahələri iqtisadiyyatın neçənci sektoru hesab olunur?

A) Birinci B) İkinci C) Üçüncü D) Dördüncü E) Beşinci

19. Eyler-Venn diaqramına əsasən, aşağıdakı ölkələrin oxşar və fərqli cəhətlərini müəyyən edin.




1. Ərazisi 3 yarımkürədə yerləşir.
2. Dünya okeanına birbaşa çıxışı vardır.
3. Unitar respublikadır.
4. Həmsərhəd olduğu ölkələrdən biri ən böyük beynəlxalq neft təşkilatının üzvüdür.
5. Paytaxtından ölkənin ən böyük çayı keçir.

A) I – 1,3,4; II – 2; III – 5
B) I – 1,3; II – 2,4; III – 5
C) I – 2,4; II – 1,5; III – 3
D) I – 3,5; II – 2; III – 1,4
E) I – 4; II – 1,3,5; III – 2

20. Çukikamata mədənindən çıxarılan faydalı qazıntının şərti işarəsini və həmin faydalı qazıntının respublikamızda mövcud olduğu inzibati rayonu müəyyən edin.

A)  – Daşkəsən

B)  – Daşkəsən

C)  – Gədəbəy

D)  – Zəngilan

E)  – Ordubad

21. İnkişaf etmiş ölkələrə məxsus olan liman şəhərlərini müəyyən edin.

1. Kobe 2. Şanxay 3. Riçards-Bey

4. Pusan 5. Xark 6. Santus

A) 1,5,6 B) 2,4,5 C) 1,3,6 D) 1,3,4 E) 2,3,4

22. Respublikamızda faraş tərəvəzçiliyin ixtisaslaşdığı iqlim yarımtipi:

A) yayı quraq keçən mülayim-isti iqlim

B) qışı quraq keçən mülayim-isti iqlim

C) qışı mülayim keçən yarımsəhra və quru çöl iqlimi

D) qışı soyuq keçən yarımsəhra və quru çöl iqlimi

E) yayı quraq keçən soyuq iqlim

23. Xankəndi şəhərinin inzibati ərazi vahidində şəhər tipli qəsəbə:

A) Turşsu B) Hadrut C) Mincivan

D) Əsgəran E) Kərkicahan

24. Dünya okeanında iqtisadi zona adlanır:

A) Sahildən 150 milədək məsafədə yerləşən su akvatoriyası

B) Sahildən 24 milədək məsafədə yerləşən su akvatoriyası

C) Sahildən 300 milədək məsafədə yerləşən su akvatoriyası

D) Sahildən 200 milədək məsafədə yerləşən su akvatoriyası

E) Sahildən 12 milədək məsafədə yerləşən su akvatoriyası

25. Regionun ÜDM-nun dəyəri 250 mlrd. dollar, ÜMM-nun dəyəri isə 140 mlrd. dollardır. Bu region xaricindəki məhsulunun həcmi 48 mlrd. dollardır. ÜDM-da xarici şirkətlərin payını hesablayın.

A) 158 mlrd. dollar

B) 179 mlrd. dollar

C) 56 mlrd. dollar

D) 37 mlrd. dollar

E) 114 mlrd. dollar